*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 305-310*

https://doi.org/10.62837/2026.2.305

**CƏNANƏ EMINOVA**
**TAĞIYEVA KÖNÜL**
**TAĞIYEVA SEVINC**
**TAĞIYEVA MÜJGAN**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**cenaneasgerova11@mail.ru**
**tagiyeva.konul87@gmail.com**
**tagiyevasevinc243@gmail.com**
**tagiyeva.mujgan@bk.ru**

# TƏLƏBƏLƏRIN İDEYA-SİYASİ TƏRBİYƏSINI FORMALAŞDIRMAĞIN FORMA VƏ YOLLARI

**Xülasə**

Məqalə ali məktəb tələbələrinin ideya-siyasi tərbiyəsi ilə bağlı olan problemə həsr olunub. Məqalədə əsasən tələbələrin ideya-siyasi tərbiyəsi probleminin mahiyyəti və məzmunu aydınlaşdırılır. Müəllif ali məktəbin auditoriyadankənar tədbirlərdə tələbələrin ideya-siyasi tərbiyəsi vasitəsilə tələbə şəxsiyyətini formalaşdırmağın imkanlarını və spesifik yollarını müəyyənləşdirmişdir. Məqalədə problemin nəzəri tərəfləri ilə yanaşı praktik fəaliyyət istiqamətlərindən də bəhs olunur.

**Açar sözlər:** ali məktəblər, auditoriyadankənar tədbirlər, ideya tərbiyəsi, siyasi tərbiyə, milli ideologiya, dövlətçilik, milli dövlətçilik, millilik, ideya-siyasi tərbiyə.

**Giriş:** Azərbaycan Respublikasında təhsil islahatları ali məktəblərdə təlim prosesi ilə yanaşı auditoriyadankənar tədbirlərin də təkmilləşdirilməsinə təkan vermişdir. Tələbə şəxsiyyətinin formalaşmasında bu tədbirlərin rolu aktuallığını qoruduğundan, auditoriyadankənar fəaliyyətlərdə ideya-siyasi tərbiyənin forma və imkanlarının araşdırılması zəruri hesab olunur.

Yeri gəlmişkən qeyd etməliyik ki, auditoriyadankənar tədbirlərdə ideya-siyasi tərbiyə vasitəsilə tələbə şəxsiyyətinin formalaşdırılmasının forma və yollarının düzgün müəyyənləşdirilməsi zəruridir. Bu proses müxtəlif iş formalarını əhatə etsə də, müasir tələblərə cavab verən əsas istiqamətlərin seçilməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan ideya-siyasi tərbiyə dərnəkləri önəmli rol oynayır və tələbələrin siyasi fəallığının artırılmasına şərait yaradır.

Ali məktəblərdə ideya-siyasi xarakterli dərnəklər xüsusi əhəmiyyət daşıyır. Bu dərnəklər müxtəlif ixtisaslarda təhsil alan tələbələrin marağını cəlb edir, onların Konstitusiyanın müddəaları və Milli Məclis tərəfindən qəbul edilən qanunlarla yaxından tanış olmasına şərait yaradır. Nəticədə, bu fəaliyyətlər tələbələrin ideya-siyasi tərbiyəsinin hərtərəfli formalaşmasına mühüm təsir göstərir.

Tələbələrin ideya-siyasi tərbiyəsinin inkişafına daha çox təsir edən formalardan biri tələbələrin klassik fəlsəfi ədəbiyyatdakı siyasi birliklərlə tanış edilməsi, digəri isə

siyasi fəalların yaradıcılıqlarındakı tarixi təcrübələrində mövcud olan ideya-siyasi tərbiyə nümunələri ilə tanış edilməsi hesab olunur. Tələbələrin istər xarici ölkələrin, istərsə də ölkəmizin tarixində baş verən siyasi olaylarla tanış edilməsi onların ideyalılıq səviyyəsini yüksəldir və onları siyasi fəallığa istiqamətləndirmiş olur.

Ona görə də tələbələrin klassik fəlsəfi ədəbiyyatdakı ideya-siyasi fəallıqla bağlı olan bəzi amillərlə tanış etmək çox faydalıdır.

Əlbəttə ki, Azərbaycan xalqı birliyi, mübarizə əzmi, igidliyi, qəhrəmanlığı sayəsində öz müstəqilliyini əldə edə bildi. Ulu Öndərimiz Heydər Əliyevin sözləri ilə desək indi bizim "Müstəqilliyimiz əbədidir, dönməzdir". Müstəqil dövlətimizin ali təhsil müəssisələrində tələbələrə ideya-siyasi tərbiyə baxımından bir sıra anlayışların, ibarələrin, hətta frazoloji vahidlərin də düzgün aydınlaşdırılmasının ideya-siyasi tərbiyə baxımından əhəmiyyəti böyükdür.

"İdeya-siyasi tərbiyə" anlayışında "siyasi" və "siyasət" sözlərinin eyni kökdən yaranması bəzən onların eyniləşdirilməsinə və siyasi tərbiyənin siyasətlə qarışdırılmasına səbəb olur ki, bu da gənclərin ideya-siyasi formalaşmasına mənfi təsir göstərə bilər. Sovetlər İttifaqında siyasi tərbiyə partiya, həmkarlar ittifaqları və komsomol təşkilatlarının birgə fəaliyyəti ilə həyata keçirilir, ərazi partiya qurumları tərəfindən dəstəklənirdi. "Bilik cəmiyyəti"nin kütləvi tədbirləri nəticəsində çoxsaylı, elmi dərəcəli pedaqoji kadrlar formalaşmış və bu qüvvə əsasən kommunist ideologiyasının təbliği ilə məşğul olmuşdur (4, s. 445).

Qeyd olunmalıdır ki, müstəqillikdən sonra yaranan partiyalar arasında Yeni Azərbaycan Partiyası (YAP) lider mövqe tutaraq ölkənin siyasi inkişafında mühüm nailiyyətlər əldə etmişdir. Bu proseslərlə bağlı tələbələrə verilən məlumatlar onların siyasi tərbiyəsinin formalaşmasına müsbət təsir göstərir.

Belə məlumatlarla tanış olan tələbələr həmin dövrün siyasi olaylarilə tanış olarkən özləri də siyasi fəallığa maraq göstərirlər.

Məhz bu baxımdan ali məktəb tələbələri ilə bağlı ideya-siyasi tərbiyə xarakterli işləri həyata keçirməsi çox faydalıdır. Ali məktəb auditoriyalarında mühazirə oxuyan, müxtəlif tipli məşğələlər aparan müəllimlər imkan tapıb gənclərin ideya-siyasi tərbiyəsinin sağlam yönümdə formalaşdırılması ilə bağlı iş aparmalıdırlar. Müşahidələr göstərir ki, gənclərimizin böyük əksəriyyəti milli-mənəvi dəyərlərimizin məzmunu, milli sərvətlərimizin bəşəri əhəmiyyəti ilə bağlı ən sadə suallara cavab verə bilmirlər. Dəhşətlisi odur ki, gənc oğlan və qızlarımız işğal olunmuş ərazilərimizin işğal olunma tarixini bilmir, onları ardıcıllıqla saymaqda belə çətinlik çəkirlər. Tariximizin yaddaşı hər bir azərbaycanlı tələbənin beyninə həkk olunmalıdır. Zaman-zaman xalqın başına gətirilmiş müsibətləri, qarış-qarış itirdiyimiz torpaqlarımızı, o torpaqda yatan ulularımızın, qəhrəman babalarımızın ruhunu əsrlər boyu unutdurduğumuz kimi, indi də unutsaq, gələcək nəslə verməyə heç nəyimiz qalmayacaq (4, səh. 446).

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 305-310*

Ona görə də belə tarixi hadisələrlə, siyasi olaylarla tələbələrin tanış edilməsi bir necə cəhətdən faydalı sayılır.

Müstəqilliyimizin ilk illərindən başlayaraq Azərbaycan xalqı öz müstəqilliyinin möhkəmləndirilməsi uğrunda mübarizə aparmışdır. Nümunə təriqi ilə 20 yanvar hadisələrindən danışmaq olar. Ona görə ki, xalqımız 20 yanvar hadisələrində də müstəqilliyimiz uğrunda mübarizəsini davam etdirmişdir. Əli yalın igid, qəhrəman oğullarımız tankların şəhərə girməsinə mane olmuşlar.

1990-cı ilin qanlı yanvarı Azərbaycan gəncliyinə vətən təəssübkeşliyi hissini lazım gələrsə vətən yolunda şəhid olmaq kimi müqəddəs hissi oyatmışdır. İstər tədris prosesində, istərsə də tədrisdən kənar tədbirlərdə tələbələrə öz unutqanlığımızı xatırlatmalıyıq. Xatırlatmalıyıq ki, SSRİ rəhbərlərinin əliyalın Azərbaycan xalqının üstünə sürdüyü tankların yanacağı Bakı neftindən hasil olmuşdur. Xatırlatmalıyıq ki, 1941-1945-ci illərdəki Vətən müharibəsindəki qələbəyə görə bütün SSRİ xalqları Bakıya, onun neftinə borcludur. Xatırlatmaq vacibdir ki, alman faşizmini lərzəyə gətirən sovet tanklarının və təyyarələrinin yanacağının 75-80 faizi Bakının neft mədənlərində istehsal olunurdu (4, səh. 447).

Burada bir tarixi hadisəni də xatırlamaq yaxşı olardı. Vətən müharibəsinin qızğın vaxtında SSSRİ-nin o vaxt ki, rəhbəri İosif Vissarionovic Stalin (İosif Cuqaşvili-C.E.) Azərbaycanın rəhbəri Mircəfər Bağırova müraciət edərək deyir ki, cəbhədə çətinliklər yaranıb. Tanklar, təyyarələr, avtomaşınlar, motosikllər, bir sözlə nüft yanacaqları ilə işləyən mexanizmlərinin istirahət müddətində dayandıqları vəziyyətdə yanacaqları donur və hərəkət edə bilmirlər. Əlac etmək lazımdır. M.Bağırov o vaxt ki, Milli Elmlər Akademiyasının rəhbərliyinə müraciət edərək köməklik göstərmələrini xahiş edir. AMEA-nın o vaxt ki, rəhbəri akademik Yusif Məmmədəliyevin bu məqsədlə kəşf etdiyi belə maddənin adını “Antifiris” qoydular. Lakin Sovet Hökumətinin xalqımıza qarşı xəyanətini də unutmaq olmaz. Əlbəttə ki, belə tarixi faktların da tələbələrə çatdırılması onlara ideya-siyasi tərbiyəsi baxımından faydalı sayılır.

Xatırlatmalıyıq ki, Sovet höküməti tərəfindən İrəvan xanlığının bütün ərazisi ermənilərə peşkəş edilmişdir. Öz nankor hərəkətlərinə görə başqa dövlətlərdən qovulmuş ermənilərə azərbaycanlılar tərəfindən səfalı Qarabağ torpağında sığınacaq verilmişdir. Yeri gəldikdə Atabəylər dövlətinin siyasi xəttini, Uzun Həsənin, Sara Xatunun diplomatiyasını, Səfəvilər dövründə Azərbaycan ərazisinin 3,5 milyon kvadrat kilometr olmasını, Dəmir Qapı Dərbəndi, Göyçə mahalının, Baş keçidin strateji əhəmiyyətini, 40 milyonluq Azəri türkünün yaşadığı Cənubi Azərbaycanı, o cümlədən Təbrizi, Marağanı, Xoyu, Tusu, Ərdəbili, Makunu, İsfahanı, Samirəni və sairə bu kimi ata-baba torpaqlarımızı xatırlatmaq tələbələrin ideya-siyasi tərbiyəsinin inkişafında əvəzsiz rola malikdir (4, səh. 447).

Tələbələrlə belə söhbətlərin aparılması auditoriyadankənar tədbirlərdə ideya-siyasi tərbiyə vasitəsilə tələbə şəxsiyyətinin formalaşdırılmasının ən səmərəli formalarından hesab olunur. Yaxud Gəncə hadisələri ilə bağlı tələbələrlə aparılan söhbətlər

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 305-310*

də onların ideya-siyasi tərbiyəsinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədris-tərbiyə prosesində tələbələrə birinci növbədə Azərbaycançılıq ideologiyasını aşılamaq lazımdır. Ona görə ki, tələbələrə aşılanan Azərbaycançılıq ideyası əgər bir tərəfdən onların ideya-siyasi tərbiyəsinin inkişafını təmin edirsə, digər tərəfdən onlarda vətənpərvərlik, yurdsevərlik, torpaq təşəbbüskeşliyi hisslərini yüksəltmiş olur.

Deməli, ideya-siyasi tərbiyə elementlərini aşılamaq üçün, ilk növbədə, yetişən gənc nəslin vətən təəssübkeşliyini yüksəltmək, dövlətin müstəqilliyinə, onun rəmzlərinə hörmətlə yanaşmağı təlqin etmək nəzərdə tutulur. Deyilənləri ümumiləşdirərək ideya-siyasi tərbiyəyə aşağıdakı şəkildə tərif vermək olar:

Yetişən nəslin milli-mənəvi və bəşəri dəyərlərini qoruyub saxlamağı, dövlətin müstəqilliyi, ərazisinin bütövlüyü, sərhədlərinin toxunulmazlığı, məfkurə saflığı uğrunda mübarizə aparmağa istiqamətləndirilməsi və beləliklə, onlarda milli mənlik şüurunun formalaşdırılması üçün aparılan planlı və mütəşəkkil işlərin məcmusu ideya-siyasi tərbiyədir (5, səh.279-280).

Belə yanaşmalar sözün əsil mənasında ali məktəb tələbələrinin ideya-siyasi tərbiyəsini formalaşdırmağın forma və yollarından məqsədyönlü, planlı və mütəşəkkil olaraq inkişaf etdirilməsi və nəhayət modernləşdirilməsi kimi dəyərləndirilməlidir.

Tələbələrin ideya-siyasi tərbiyəsinin formalaşdırılması işinin düzgün təşkili ali təhsilin ən əsas fəaliyyət istiqamətindən də asılıdır.

Ali təhsilin əsas fəaliyyət istiqamətləri çox zəngindir. Çünki buraya biliklərin əsaslarının öyrədilməsi, hərtərəfli dünyagörüşünün aşılanması, çoxsahəli ixtisasların verilməsi, tədqiqatların aparılması və s. kimi zəruri istiqamətlər daxildir. Bu istiqamətləri quruplaşdırarkən aşağıdakıları göstərmək olar:

- dərin elmi biliyə, mütərəqqi dünyagörüşünə, mükəmməl ixtisas hazırlığına, yüksək erudisiyaya, mədəniyyətə malik vətəndaşlar yetişdirmək;
- müxtəlif dərəcələrdən olan ali təhsilli mütəxəssislər hazırlamaq;
- gəncləri elmi axtarışlara yönəltmək, onlarda təlim-idrak motivlərini formalaşdırmaq;
- elmi-metodik ədəbiyyat, dərslik və tədris vəsaitləri hazırlamaq;
- dövlət, müəssisə və ya müvafiq təşkilatların sifarişləri ilə kadr hazırlamaq üçün müqavilə bağlamaq;
- elmi-pedaqoji və elmi kadrların attestasiyasını keçirmək;
- ixtisasartırma və kadrların yenidən ixtisaslaşmasını təmin etmək;
- xarici ölkələrin ali məktəbləri ilə əlaqə yaratmaq və s. (5, səh.222).

Deməli ali təhsil sistemində dərin elmi biliyə, elmi dünyagörüşünə, hərtərəfli və mükəmməl ixtisas hazırlığına, dinamik erudisiyaya, ən yüksək mədəniyyətə malik olan vətəndaşların yetişdirilməsi üçün onların həm də ideya-siyasi tərbiyə baxımından həyata hazırlanması lazım gəlir.

Başqa bir istiqamət üzrə həyata keçirilən tədbirlərdə ölkəmizin tarixindəki keşməkeşli hadisələrlə də tələbələrin tanış edilməsi onların ideya-siyasi tərbiyəsinin formalaşdırılması baxımından dinamik təsirə malik olur. Qeyd etdiyimiz kimi ali məktəbin auditoriyalarında auditoriyalarında mühazirə oxuyan müxtəliftipli məşğələlər aparan müəllimlər imkan tapıb gənclərin ideya-siyasi tərbiyəsini sağlam yönümdə formalaşdırılması ilə bağlı iş aparmalıdırlar. Müşahidələr göstərir ki, gənclərimizin böyük əksəriyyəti milli-mənəvi dəyərlərimizin məzmunu, milli sərvətlərimizin bəşəri əhəmiyyəti ilə bağlı ən sadə suallara cavab verə bilmirlər. Dəhşətlisi budur ki, gənc oğlan və qızlarımız işğal olunmuş ərazilərimizin işğal olunma tarixini bilmir, onları ardıcıllıqla saymaqda belə çətinlik çəkir. Tariximizin yaddaşı hər bir azərbaycanlı tələbənin beyninə həkk olunmalıdır. Zaman-zaman xalqın başına gətirilmiş müsibətləri, qarış-qarış itirdiyimiz torpaqlarımızı, o torpaqda yatan ulularımızın, qəhrəman babalarımızın ruhunu əsrlər boyu unutdurduğumuz kimi, indi də unutsaq, gələcək nəslə verməyə heç nəyimiz qalmayacaq: nə torpaqlarımız, nə həmişə fəxr etdiyimiz mədəniyyətimiz, nə də mənəviyyatımız. Atalar yaxşı deyiblər: «Torpaqdan pay olmaz». Amma biz istər Şimaldan, istər Cənubdan, istərsə də Qərbdən bu torpaqları o qədər «paylamışıq» ki, axırda nankor qonşular bizim unutqanlığımızdan istifadə edərək, halal torpaqlarımızda məskunlaşaraq bizə qarşı torpaq iddiasından əl çəkmək istəmirdilər (5, 2023. səh. 282).

Doğrudur, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının uzaqgörən siyasəti sayəsində bütün bunların ali məktəbin mühazirələrində tələbələrə ətraflı şəkildə çatdırmağın mümkün olmadığı hallarda auditoriyadankənar tədbirlərdə məqsədyönlü, planlı və mütəşəkkil olaraq onlara tələbələrə çatdırılması onların ideya-siyasi tərbiyəsinin günün tələbləri baxımından formalaşdırılması daha məqsədəmüvafiq sayılır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə tələbələrin ideya-siyasi tərbiyəsini formalaşdırmağın ən müasir forma və yollarının müəyyənləşdirilməsi məqalənin elmi yeniliklərindən sayılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən əsasən ali məktəb tələbələri, ali məktəblərin auditoriyadankənar tədbirlərinə rəhbərlik edənlər istifadə edərək yararlana bilərlər.

**Nəticə.** Ali məktəblərin auditoriyadankənar tədbirlərində tələbələrin ideya-siyasi tərbiyəsinin formalaşdırılmasına xidmət edən forma və yolların müəyyənləşdirilməsi ilk növbədə onların ideyalılıq imkanlarını artırır və siyasi fəallıqlarını yüksəltmiş olur.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Hüquq yayın evi, 2019.
2. Təhsil haqqında Azərbaycandan Respublikasının Qanunu, Bakı, Qanun, 2010.
3. Rüstəmov F., Paşayev Ə., Bakı, Nurlan, 2007.
4. Sadıqov F.B. Pedaqogika, Biznes Universitetinin nəşri, Bakı, 2006.
5. Sadıqov F.B., Tahirova Ş.Ş., Quliyev A.İ., Mövsümlü A.N., Eminova C.Ş., Ali məktəb pedaqogikası (tədris mərkəzi), Bakı, Gənc nəşr, 2023.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 305-310*

**6.** Sadıqov F.B. Ümumi pedaqogika, Bakı, Maarif, 2024.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 305-310*

**Джанана Эминова**
**Кёнюль Тагиева**
**Мюжган Тагиева**
**Севиндж Тагиева**

**Формы и способы формирования идеологического и политического воспитания учащихся**

**Резюме**

Статья посвящена проблеме идеологического и политического воспитания студентов вузов. В статье в основном уточняется сущность и содержание проблемы идеологического и политического воспитания студентов. Автор выявляет возможности и конкретные пути формирования личности студента посредством идеологического и политического воспитания в рамках внеучебных мероприятий университета. В статье рассматриваются теоретические аспекты проблемы, а также направления практической деятельности.

**Ключевые слова:** университеты, внеклассные мероприятия, идеологическое воспитание, политическое воспитание, национальная идеология, государственность, национальная государственность, гражданство, идеологическое и политическое воспитание.

**Janana Eminova**
**Konul Tagiyeva**
**Mujgan Tagiyeva**
**Sevinc Tagiyeva**

**Forms and ways of shaping the ideological and political education of students**

**Summary**

The article is devoted to the problem of ideological and political education of university students. The article mainly clarifies the essence and content of the problem of ideological and political education of students. The author has identified the possibilities and specific ways of forming the student personality through ideological and political education of students in extracurricular events of the university. The article discusses the theoretical aspects of the problem as well as the directions of practical activity.

**Keywords:** universities, extracurricular activities, ideological education, political education, national ideology, statehood, national statehood, nationality, ideological and political education.

**Rəyçi: ADAU-nun Dillər Tədris Mərkəzinin filologiya üzrə fəlsəfə doktoru dos (e.a.o) Aslanova Gülnara**